# Kənd təsərrüfatı işçiləri peşə bayramlarını qeyd ediblər

***Aqrar sektor Azərbaycan iqtisadiyyatında daim önəmli rol oynayıb. Bu sahənin əsaslı inkişafı isə ulu öndər Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Ümummilli liderin rəhbərliyi ilə ölkədə torpaq islahatı həyata keçirildi və görülən işlər nəticəsində gələcək uğurların təməli qoyuldu. Hazırda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən düşünülmüş siyasət nəticəsində aqrar sektor keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub.***



Azərbaycan Prezidenti İlham Əliyevin 9 oktyabr 2008-ci il tarixli Sərəncamına əsasən hər il noyabrın 1-i ölkəmizdə keçirilən Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin kollektivi də peşə bayramını qeyd edib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gələrək gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsinə öz ehtiramlarını bildiriblər.

Sonra rayon aqrar inkişaf mərkəzinin inzibati binasında geniş bayram tədbiri keçirilib. Bayram mərasimində çıxış edən mərkəzin direktoru Rahib Əhmədov rayonun aqrar sahəsinin bütün işçilərini Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə təbrik edib. O, bildirib ki, Prezident İlham Əliyevin tapşırıqlarına əsasən son illər aqrar sektorda strateji məhsulların, o cümlədən Qəbələ rayonu üçün xarakterik olan baramaçılığın, tütünçülüyün, fındıqçılığın və digər valyuta gətirən ixracyönümlü və sosialyönümlü sahələrin inkişafına diqqət artırılıb.

Görülən işlərin nəticəsində bu ilin doqquz ayında rayonumuzda kənd təsərrüfatında ümumi istehsal həcminin ötən ilin eyni dövrü ilə müqayisədə xeyli artdığını deyən mərkəzin direktoru aqrar sektorda aparılan islahatların nəticəsində heyvandarlıq və bitkiçilik məhsullarının da əsaslı surətdə çoxaldığını, kənd təsərrüfatı məhsulları istehsalı istiqamətində görülən tədbirlərin müsbət nəticələr verdiyini diqqətə çatdırıb.

Daha sonra Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev tədbir iştirakçılarını Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə təbrik edib. O, çıxışında Prezident İlham Əliyevin kənd təsərrüfatı məhsulları istehsalçılarına qayğısından, əldə edilən uğurlardan və qarşıda duran vəzifələrdən danışıb. Rayonda kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirildiyini qeyd edən Arif Allahverdiyev bildirib ki, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiq olunması istiqamətində davamlı olaraq iş aparılır.

Digər çıxış edənlər də aqrar sahədə aparılan islahatların müsbət nəticələrindən, görülən işlərdən, dövlət tərəfindən bu sahəyə göstərilən diqqət və qayğıdan danışıblar.

Yekunda bir qrup kənd təsərrüfatı işçiləri Fəxri fərmanla təltif edilib.

**«Qəbələ»**

## Mikayıl Müşfiq–110

# Ürəklərdə yaşayan şair



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli poeziyamızın inkişafında böyük rol oynamış Mikayıl Müşfiqin anadan olmasının 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən ölkəmizdə sevgi və gözəllik şairinin yubileyi geniş qeyd olunur.

Bu günlərdə Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində Mikayıl Müşfiqin 110 illiyi ilə əlaqədar "Qara yellər əsdi... 1937-ci il" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə şairin həyatı və ədəbi yaradıcılığı haqqında geniş söhbət açılmış, həmin tarixi illərə nəzər salınmış, ədibin əsərlərindən parçalar oxunmuşdur.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**

# Yeniyetmələr arasında milli intellektual oyun

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrası ilə əlaqədar Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən noyabrın 2-də şəhər 1 nömrəli tam orta məktəbdə gənclərin daha geniş kütləsinin intellektual fəaliyyətə cəlb edilməsi, asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə yeniyetmələr arasında "Xəmsə" Milli İntellektual Oyunu üzrə VI Azərbaycan Çempionatının rayon seçim mərhələsi keçirilmişdir.

Tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi Mübariz Ağayev çıxış edərək ölkə Prezidenti İlham Əliyevin rəhbərliyilə gənc nəslə göstərilən diqqət və qayğıdan, respublikada dövlət gənclər siyasətinin uğurlu inkişafından danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

"Xəmsə" Milli İntellektual Oyununun keçirilməsində əsas məqsədin gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onların arasında elmi biliklərə marağı artırmaq, Azərbaycanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olduğu bildirilmişdir.

Rayon mərhələsində yaşı 14-dən 17-dək olan 8 komandadan ibarət yeniyetmələr öz bilik və bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Nohurqışlaq kənd tam orta məktəbin komandası I, Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin komandası II və Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin komandası III yerə çıxmışlar. Hər üç komanda "Xəmsə" Milli İntellektual Oyunu üzrə VI Azərbaycan çempionatının Qax rayonunda keçiriləcək zona mərhələsinə vəsiqə qazanmışdır.

Qalib komandalara rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**Mübariz AĞAYEV,**
**rayon gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Ədəbi-bədii tədbir keçirilib

İsmayıl bəy Qutqaşınlının Xatirə Ev-Muzeyində "İsmayıl bəy Qutqaşınlının Azərbaycanın maarifçilik tarixində rolu" adlı tədbir keçirilmişdir. Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin də qatıldığı tədbir diskussiya və ədəbi-bədii kompozisiya şəklində keçirilmişdir.



Şagirdlərin hazırladığı səhnəciklərdə böyük ədib, coğrafiyaçı və hərbçi İsmayıl bəyin həyat və fəaliyyətinin anları bacarıqla canlandırılmışdır.

İsmayıl bəy Qutqaşınlının Azərbaycan mətbuatının yaradıcısı, böyük maarifçi Həsən bəy Zərdabi ilə görüş səhnəsi tədbir iştirakçılarında böyük marağa səbəb olmuş və çox az adama məlum olan tarixi həqiqətlərə işıq salmışdır.

**Çimnaz MÜZƏFFƏROVA,**
**muzeyin direktoru.**

# 12 noyabr Konstitusiya Günüdür

***Dövlət müstəqilliyimizin bərpa olunduğu ilk illərdə ölkəni bütün sahələrdə yaşanan xaosdan, parçalanmaq təhlükəsindən xilas etmək üçün 1993-cü ildə xalq ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ümummilli liderin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı.***

1995-ci ilin mayında onun sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı. Komissiyanın hazırladığı bitkin, əhatəli layihə 1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu üçün 1995-ci il noyabrın 12-də keçirilən referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişikliklərı əhatə edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir.

Müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin hüquqi bazasını yaratdı və onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün - noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, ölkə Prezidentinin 1996-cı il 1 noyabr tarixli Fərmanına əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilir.

Ötən 23 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb.

**Rais RƏŞİDOV,**
**«Qəbələ»**